**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАН-СКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**СЕВДА ИБРАГИМ гызы МАНСУРОВА**

# ОСОБЕННОСТИ ОПЕРАТИВНОЙ ПАМЯТИ В ХУДОЖЕСТВЕННОМ ТВОРЧЕСТВЕ

6107.01 – Общая психология

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по психологии

**БАКУ – 2016**

AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**SEVDA İBRAHİM QIZI MANSUROVA**

# OPERATİV HAFİZƏNİN BƏDİİ YARADICILIQDA XÜSUSİYYƏTLƏRİ

6107.01 – Ümumi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

İş Bakı Slavyan Universitetinin “Pedaqogika və psixologiya” kafedraslnda yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi, professor **Əbdül Əli oğlu Əlizadə**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru, professor **Ərəstun Təriş oğlu Baxşəliyev**

psixologiya üzrə fəlsəfə doktoru **Mehriban Niyaz qızı Eyyubova**

Aparıcı təşkilat: **Azərbaycan Dillər Universitetinin Psixologiya kafedrası**

Müdafiə “29_” “__10_” 2016-cı ildə saat “___” da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” “_________” 2016 - cı ildə göndərilib.

FD.02.014 Dissertasiya şurasının
elmi katibi, psixologiya üzrə
fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.**Hafizə insan psixikasının təkamülündə ən qədim və uzunömürlü idrak prosesi olmaqla yanaşıinsana bu və ya digər sahədə effektiv fəaliyyət göstərməyə imkan verən, onun sosial həyatının, ünsiyyət və fəaliyyətinin əsas psixoloji komponentlərini təşkil edən psixi prosesdir. Müasir tədqiqatlar göstərir ki, yaradıcı fəaliyyətin gerçəkləşməsində və tənzimində hafizənin, xüsusilə də opertaiv hafizənin rolu böyükdür. Opertaiv hafizənin bədii yaradıcılıqda xüsusiyyətlərinin öyrənilməsi həm müasir cəmiyyətdən irəli gələn sosial sifarişdən, həm də təhsildə yaradıcılığa, kretaiv davranışa olan tələbatın artmasıdan qaynaqlanır.

Nəzərə almaq lazımdır ki, yaradıcılıq prosesinin mürəkkəbliyi onun inkişafında mühüm əhəmiyyətə malik amillərin birtərəfli qaydada üzə çıxarılmasına maneəçilik yaradır. Bu prosesdə təfəkkür, təxəyyül, hafizə obrazlarının və keçmiş təcrübəninöyrənilməsi yaradıcılıq prosesinin qaunuauyğunluqlarını aşkarlamağa, eləcə də təlimdə onun inkişaf etdirilməsinə zəmin yaradır.

Faktlar göstərir ki, yaradıcılıq prosesinin müxtəlif mərhələlərində və müxtəlif növlərində obrazların canlandırılması onun optimal təşkilinin və effektiv təzahürünün zəruri şərtlərindən biridir və digər idrak prosesləri ilə müqayisədə operativ hafizənin rolu daha yüksəkdir.

Bədii yaradıcılıq prosesində operativ hafizənin xüsusiyyətlərinin öyrənilməsi bir tərəfdən bu fenomenin yaradıcılıqda rolunu aydınlaşdırır, digər tərəfdən isə yaradıcı insanlarınfərdi xüsusiyyətlərini, yaradıcılıqla hafizənin əlaqə və asılılıqlarını aşkarlamağa imkan verir. Başqa bir tərəfdən isə bu sahədə sistemli tədqiqatların kifayət qədər olmamasıda bu problemin öyrənilməsini aktuallaşdırır.

Yaradıcılıq prosesi insanın yaşadığı mühitin ictimai-siyasi və sosial şəraitinə uyğun olaraq yeniləşir. Bu baxımdan hər bir tarixi-ictimai mərhələdə bədii yaradıcılığın məzmunu dəyişir. XXI əsrdə qloballaşmanın təsiri ilə insan resurslarından, onun yaradıcı əməyindən maksimumistifadə zərurətinin yarandığı bir dövrdə bu problemin tədqiqi yaradıcılığın psixoloji mexanizmlərini açmağa və təlim-tərbiyə prosesində bu faktları nəzərə almağa zəmin yaradır. Çünki, müasir inkişaf daha çox yaradıcılara ehtiyac duyur və cəmiyyətin, fəaliyyət sahələrinin yaradıcı təşkilinizəruri edir.

Müəyyən edilmişdir ki, bədii yaradıcılıqda baş verən hafizə proseslərinə informasiyanın ötürülməsindən başlayaraq həmin materialın yeni məzmunda təfəkkürə ötürülməsinə qədər baş verən bütün proseslər aid edilir. Bu isə, göründüyü kimi, idraki imkanların artırılmasını və keyfiyyətini şərtləndirir. Bütün bunları,o cümlədən operativ hafizənin yaradıcılıq proseslərin-

dəki xüsusiyyətlərinin kifayət qədər araşdırılmadığını və problemin ciddi elmi-nəzəri əhəmiyyətini nəzərə alıb "Operativ hafizənin bədii yaradıcılıqda xüsusiyyətləri" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.**Hafizə probleminin tədqiqi çox qədim tarixə malikdir. Hafizə haqqında fikirlərə hələ görkəmli şərq alimləri İbn Sina və Əl-Qəzəlinin əsərlərində rast gəlinir. Hafizə probleminin ilk elmi psixoloji təhlili isə ilk dəfə G. Ebbinhauz tərəfindən aparılmışdır.Umumiyyətlə, hafizənin təbiəti və inkişafı haqqında indiyə qədər aktuallıq kəsb edən ideyalarahəm xarici (G.Ebbinhauz, U.Ceyms, A.Ben, Z.Freyd, A.R.Luriya, V.Y. Lyaudis, A.Atkinson və b.) həm də Azərbaycan (B.H.-Əliyev,R.H.Qədirova,Ə.Ə.Əlizadə, Ə.S.Bayramov,K.R.Əliyeva, M.Ə.-Həmzəyev, Ə.Ə.Qədirov, R.İ.Əliyev, S.İ.Seyidov, A.Y.Məmmədov və b.) Azərbaycan psixoloqlarının əsərlərində rast gəlinir.Yaradıcılıq fəaliyyətinin operativ hafizə ilə əlaqəsinə də müxtəlif tədqiqatlar həsr olunmuşdur (H.Spenser, A.Ben, F.V.Köler, K.Koffka, K. Levin, C.Uotson, M.Vertgeymer, E.L.Torndayk, Z.Freyd, K.Q. Yunq, A.Adler, C.M.Kettel, J.Piaje, C.Kelli, R.Solso, A.Maslou, K.Rocers, Q.Olport,C.Rotter,D.N.Ovsyanniko-Kulikovski, L.S.Vıqotski, M.Q.Yaroşevski, Y.A.Ponomaryov, B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, R.H.Qədirova,S.I.Seyidov, K.R.Əliyeva, R.V.Cabbarov, Y.İ.İbadov, Ə.T.Baxşəliyev,İ.M.Novruzlu, R.Ə. Cavadov və b.). Bu tədqiqatlarda yaradıcılığın mahiyyəti, psixoloji xüsusiyyətləri, yaradıcılıq prosesini stimullaşdıran amillər öyrənilmiş, bu prosesdə hafizənin roluna toxunulmuşdur.Ümumiyyətlə, bədii yaradıcılıq prosesində hafizənin rolunun öyrənilməsinə həsr edilmiş tədqiqatlarda operativ hafizə ilə bağlı işlərə az rast gəlinir.

Bütün bunlarla yanaşıJ.R.Anderson, M.İ.Bauer, O.N.Kinyakina, T.Zaxarova, P.Leş, Y.Asoskova və b. tədqiqatçıar operativ hafizə ilə bağlı müxtəlif istiqamətli araşdırmalar aparmışlar.Lakin qeyd etmək lazımdır ki, operativ hafizənin yaradıcılıqda rolu istiqamətində tədqiqatlar kifayət qədər deyil və sistemli xarakter daşımır. Bu da problemin aktual olduğunu bir daha diqqət mərkəzinə gətirir.

**Tədqiqatın obyekti**–yazıçı, rəssam və bəstəkarların bədii yaradıcılığında operativ hafizənin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın predmeti**–bədii yaradıcılıq prosesində operativ hafizənin təşəkkülüvəonların qarşılıqlı əlaqəsinin xüsusiyyətləridir.

**Tədqiqatın məqsədi** psixoloji eksperimentlər vasitəsilə yazıçı, rəssam və bəstəkarların operativ hafizəsinin xüsusiyyətlərinin müəyyənləşdirilməsindən, bədii yaradıcılıq prosesində operativ hafizənin rolunu, operativ hafizənin şəxsiyyət tipləri ilə bu prosesə subyektiv nəzarət

imkanlarıarasındakı əlaqənin öyrənilməsindən ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Bədii yaradıcılıq sahəsində fəaliyyət göstərən insanların( yazıçı, rəssam və bəstəkarların) operativ hafizəsinin xüsusiyyətləri bir sıra amillərlə yanaşı, onların fəaliyyət sahəsinə uyğunluğu və fərdi-psixoloji xüsusiyyətləri ilə də şərtlənir.

Əsas fərziyyəyə uyğun olaraq iki köməkçi fərziyyədə götürülmüşdür:

- Təxəyyül obrazlarının zənginliyi, uzunmüddətli hafizənin yadasalma müddətinin sürətliliyi bir sıra amillərlə yanaşı operativ hafizənin həcmindən də asılıdır.

-Bədii yaradıcılığın müxtəlif sahələrində məşğul olan mütəxəssislərdə operativ hafizə imkanlarından istifadə yolları haqqında psixoloji biliklər artırılarsa, bədii yaradıcılıq motivasiyasının optimal inkişafına şərait yaranar, yaradıcılıq sahəsində yüksək uğurlar əldə edə bilərlər.

**Tədqiqatın vəzifələri**. Tədqiqatın gedişində aşağıdakı vəzifələrin həlli nəzərdə tutulur:

1) Hafizə nəzəriyyələrini təhlil etmək, bu nəzəriyyələrdə operativ hafizənin xüsusiyyətləri haqqındakı yanaşma, konsepsiya və modelləri təhlil etmək;

2) Hafizənin strukturunda operativ hafizənin rolunu, funksiyalarını, mexanizmlərini aşkarlamaq;

3) Operativ hafizə növlərinin təsnifatını aparmaq;

4)Problemin tədqiqi metodikasını müəyyənləşdirmək, tədqiqatın obyektiüçün əlverişli nümunələri qruplaşdırmaq;

5)Bədii yaradıcılıq prosesinin psixoloji məzmununu təhlil etmək;

6) Bədii fəaliyyətin müxtəlif janrlarında yaradıcılıq və operativ hafizə proseslərinin qarşılıqlı əlaqəsini müəyyənləşdirmək;

7) Bədii yaradıcılıq prosesində operativ hafizənin iradi tənzimlənməsinin psixoloji şərtlərini ayırd etmək.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədqiqatın metodoloji əsaslarını yaradıcılıq fəaliyyəti haqqında fəlsəfi-psixoloji yanaşmalar, klassik və müasir psixoloji konsepsiyalar, şəxsiyyət nəzəriyyələri, hafizənəzəriyyələri, bədii yaradıcılıqla məşğul olan şəxsiyyətlərin yaradıcılığı haqqında psixoloji nəzəriyyələrtəşkil edir.

Tədqiqatda aşağıdakı metodikalardan istifadə edilmişdir:

- "Ədədlərin yerləşməsi"metodikası;

"Bax yadda saxla" metodikası;

- "Operativ hafizənin həcminin ölçülməsi metodikası(Cekobs metodikası)";

- "Qısamüddətli hafizə indeksinin müəyyənləşdirilməsi metodikası(Cekobs metodikası)";

- “Zinçenko metodikası”;
- “Assosiativ hafizənin müəyyənləşdirilməsi” metodikası;
- “Dünyanın obrazı” metodikası;
- “İnsanın həndəsi fiqurlardan ibarət konstruktiv təsviri” metodikası ;
-“Subyektiv nəzarət səviyyəsinin tədqiqi” metodikası;
- “Operativ hafizənin xüsusiyyətləri” metodikası;
-“Piktoqramın köməyi ilə səmərəli yaddasaxlama” metodikası;
- “Ev, insan ağac” testi.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada yazıçı, rəssam və bəstkarların bədii yaradıcılıq prosesində operativ hafizəsinin xüsusiyyətləri öyrənilmiş, bədii yaradıcılıq sahələrinin şəxsiyyətin tipləri, maraqları, qabiliyyətləri, eləcə də hafizə proseslərininxüsusiyyətlərindən asılılğı aşkarlanmışdır.

Bununla yanaşı bu işdə:

-Yaradıcılıq prosesində hafizənin operativ növünün inkişafı heç də davamlı olmadığı müəyyən edilmiş, yaradıcı insanın əhval-ruhiyyəsinin, iş keyfiyyətinin, koqnitiv üslubunun və s.kimiamillərin bu prosesdə xüsusi rolu olduğu aşkarlanmış;

-Operativ hafizənin məhsuldar yaradıcı fəaliyyətdə daha yaxşı formalaşdığı müəyyən edilmiş, onun formalaşmasında yaradıcı şəxsiyyətin iradi imkanları, özünügerçəkləşdirmə qabiliyyəti həlledici rola malik olduğu aşkarlanmış;

-Rəssamların operativ hafizəsinin həcmi onların təxəyyül imkanları ilə də əlaqəli olduğu ayırd edilmiş, eyni zamanda uzunmüddətli hafizə obrazlarının yada salınaraq işçi hafizədə assosiasiyalara qoşulma imkanlarının da mühüm əhəmiyət kəsb etdiyi müəyyən edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Yaradıcılıq prosesində hafizə obrazlarının kodlaşdırma sistemi nə qədər müxtəlif olursa, operativ hafizənin işi bir o qədər çətinləşir. Əksinə, yalnız birməzmunlu obrazlarla işləmək lazım gəldikdə operativ hafizənin həm həcmi, həm də intensivliyi artır.

2. Bədii yaradıcılıq sahələri şəxsiyyətin tipləri, maraqları, qabiliyyətləri, eləcə də hafizə proseslərinin xüsusiyyətləri ilə bağlı olub,hafizə proseslərinin düzgün tənzimlənməsindənasılıdır. Bu zamanyaradıcılıq fəaliyyəti səmərəli qurulur.

3. Bədii yaradıcılıq üzrə qabiliyyətlərin inkişafı operativ hafizə növlərinin onun sahələrinə müvafiq qaydada fəallaşdırılmasını tələb edir və bədii yaradıcılıq prosesində operativ hafizənin xüsusiyyətləri emosional-iradi sahə ilə qarşılıqlı əlaqədə olur.

4. Bədii yaradıcılıq prosesində operativ hafizənin rolunu müxtəlif psixotexniki üsullarla artırmaq mümkündür.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti**. Tədqiqatdan əldə olunmuş nəticələryaradıcılığın psixoloji strukturu, yaradıcılıq fəaliyyətinin təbiəti, xüsusiyyətləri, bədii yaradıcılıq prosesi və operativ hafizə arasında əlaqə, bədii yaradıcılığın sahələrinə görə operativ hafizənin aktuallaşma xüsusiyyətləri haqqında psixologiyanı yeni biliklərlə zənginləşdirir və yeni elmi istiqamətlərin formalaşmasınazəmin yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada irəli sürülən elmi-nəzəri fikirlərdən, istifadə edilmiş didaktik materiallardan, modifikasiya edilmiş testlər-sınaqlardan, göstərilmiş yol və vasitələrdən bədii yaradıcılıq prosesində operativ hafizənin fəallaşdırılmasında, bədii yaradıcılığın ədəbi janr, rəssamlıq, musiqi sahələri üsrə təhsil alan tələbələrin yaradıcılıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı materialların hazırlanmasında və bədii yaradıcılıq fəaliyyəti ilə bağlı tövsiyələrin hazırlanmasında, eləcə də seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.**Tədqiqatdan əldə olunmuş nəticələr Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının elmi seminarlarında, respublika elm-praktik konfranslarında müzakirə olunmuşdur. Dissertasiyanın əsas müddəaları nəticədə, təkliflərdə, məqalə və tezislərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.**Dissertasiya iki fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, əsas fərziyyəsi, vəzifələri, metodoloji əsasları və metodları, elmi yeniliyi, nəzəri, praktik əhəmiyyəti və aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın **"Hafizənin tədqiqinin nəzəri-tarixi məsələləri"** adlanan birinci fəsli dörd yarımfəsildən ibarətdir. Birinci fəslin **"Hafizə nəzəriyyələri, onların yaranması və inkişafı"** adlanan yarımfəslində hafizə proseslərinin elmi-psixoloji təhlili, hafizənin tədqiqinə yönəlmiş müxtəlif nəzəri mövqelər, hafizə nəzəriyyələri, onların yaranması və inkişafı öz əksini tapmışdır. Hafizə problemlərinin elmi psixoloji təhlili barədə fikirlər, eyni zamanda ilk dəfə hafizənin eksperimental tədqiqi və s. kimi məsələlər bu yarımfəsildə təhlil olunmuşdur.

Qeyd etmək lazımdır ki, psixologiyada hafizənin funksional imkanlarını müəyyən edən bir neçə nəzəriyyələr formalaşmışdır. Bunlardan psixoloji, fizioloji, biokimyəvi, informasiya, koqnitiv və neyrofiziolojinəzəriyyələri qeyd etmək olar. Psixologiyada ən çox öyrənilmiş sahə hafizə olsa da hələ də bu sahədə bitmiş nəzəriyyə demək olar ki, yoxdur.

Birinci fəslin**“Hafizənin strukturu və hafizə prosesləri”** adlanan ikinci yarımfəslində hafizənin struktur xüsusiyyətləri aydınlaşdırılır. Hafizə quruluş baxımından tiplərə, növlərə və proseslərə görə şərh olunur. Qeyd olunur ki, hafizə tipindən asılı olaraq, insan informasiyanı bu və ya digər yollarla yadda saxlayır, dünyanı dərk edir, ətrafdakı insanlarla ünsiyyətə girir. Bunların hamısı insan dəyərlərinin daxili sisteminin formalaşması üçün əsasdır. İnsanın informasiyanı yadda saxlayıb lazım olanda yada salması zamanı operativ hafizə müəyyən əməliyyatlar aparır. Məhz bədii yaradıcılıq zamanı biliklərin yada salınması və hər hansı bir yaradıcı məhsulun ərsəyə gəlməsi operativ hafizənin rolunun bu prosesdə digər idrak proseslərindən yüksək olduğunu göstərir. Bununla yanaşı hafizənin xüsusiyyətlərini daha əhatəli öyrənmək məqsədi ilə hafizə assosiasiyalarının iş prinsipi araşdırılmışdır. Hafizənin psixoloji, neyrofizioloji və biokimyəvi səviyyələrdə araşdırılması, onun müxtəlif cəhətlərdən geniş şəkildə izahını verməyəimkan verir. Bu paraqrafda informasiyanın işlənməsinin cox saylı modelləri haqqında da təhlillər aparılmışdır. Bunlara Vo və Norman, Atkinson və Şifrin, P.İ.Zinçenko, Kreyk və Lokxart, Rocers, Kuiper və Kirker, Tulvinqin modellərini aid etmək olar.

Dissertasiyanın**“Hafizə proseslərində operativ hafizənin rolu”** adlanan üçüncü yarımfəsilndə isə hafizə proseslərində operativ hafizənin rolu öz əksini tapmışdır. Qısamüddətli, üzünmüddətli və operativ hafizənin xüsusiyyətləri, bu növlərin müqayisəli təhlili verilmişdir. Bu yarımfəsildə, xüsusilə operativ hafizənin xüsusiyyətləri, bədii yaradıcılıq prosesindəki rolu müəyyənləşdirilir.

Operativ hafizəni uzunmüddətli və qısa müddətli hafizə ilə müqayisə edərək ilk növbədə bunu qeyd edə bilərik: operativ hafizə müvafiq fəaliyyət prosesində baş verən, qısamüddətli və uzunmüddətli hafizədən daxil olan informasiyanın hesabına bu fəaliyyətə xidmət edən, hazırki fəaliyyətin yerinə yetirilməsi üçün zəruri olan hafizə növüdür. Bu baxımdan problemin həlli istiqamətində, hafizə növlərinin müqayisəli təhlilizərurəti danılmazdır.

Dissertasiyanın I fəslinin dördüncü yarımfəsli **“Problemin tədqiqi metodikası”** adlanır.Burada tədqiqatın metodikası təsvir olunur və istifadə olunan metodikalar göstərilir.Tədqiqatda Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası, Azərbaycan Bəstəkarlar İttifaqı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Yazıçılar Birliyində, fəaliyyət göstərən 15 yaradıcı şəxs və Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Bakı Slavyan Universitetinin tələbələri olmuşdur.

Dissertasiyanın **“Bədii yaradıcılıq prosesində operativ hafizə əməliyyatlarının təşkilinin psixoloji xüsusiyyətləri”** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiyanın II fəslininbirinci yarımfəsli **“Bədii yaradıcılıq prosesinin psixoloji məzmunu”** adlanır. Bu yarımfəsildə qeyd ol-

unur ki, bədii yaradıcılıq öz sahələrinə görə çox zəngindir. Bu zənginlik yalnız incəsənətin sahələri ilə deyil, həm də sənət əsərlərinin fərdi xüsusiyyətləri, üslubu, xarakteri və isanlara göstərdiyi təsirinə görə fərqlənir. İstər musiqi, istər rəssamlıq, istərsə də incəsənətin digər sahələrindəki sənət əsərləri müəlliflərinin fərdi üslubuna görə fərqlənirlər. Hər bir əsərdə onu yaradan insanın şəxsi ideyaları özünü göstərir. Bu, həmin əsəri yaradan insanın fərdi-psixoloji quruluşu, idealları, arzuları, dəyərləri və digər məsələlərlə izah olunur.

Yaradıcılıq fəaliyyətinin öyrənilməsinə XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlanmışdır. Bu dövrlərdə assosionist (H.Spenser, A.Ben),geştaltpsixoloji (F.V.Köler, K.Koffka, K. Levin), biheviorist (C.Uotson, M.Vertgeymer, E.L.Torndayk), analitik (Z.Freyd, K.Q. Yunq, A.Adler və b.), koqnitivist (C.M.Kettel, J.Piaje, C.Kelli, R.Solso) və humanist (A. Maslou, K. Rocers, Q.Olport, C.Rotter.) yanaşmalarda yaradıcılıqla bağlı müxtəlif nəzəriyyələr həsr olunmuşdur.Bu yarımfəsildə problemlə bağlı geniş tədqiqatların aparıldığı Rusiya məktəbində (D.N.Ovsyanniko-Kulikovski, L.S.Vıqotski, M.Q.Yaroşevski, Y.A.Ponomaryov), o cümlədən Azərbaycanda (Ə.Ə.Əlizadə,K.R.Əliyeva, S.I.Seyidov, Y.İ. İbadov, Ə.Baxşəliyev, İ.M.Novruzlu) yaradıcılığın mahiyyəti, psixoloji xüsusiyyətləri, yaradıcılıq prosesini stimullaşdıran amillərin öyrənilməsi məsələsi də açıqlanmışdır.

Dissertasiyanın **"Bədii fəaliyyətin müxtəlif janrlarında yaradıcılıq və operativ hafizə proseslərinin qarşılıqlı əlaqəsi"** adlanan ikinci yarımfəslində bədii yaradıcılığın müxtəlif janrları üzrə (rəssamlıq, bəstəkarlıq, nəsr) fəaliyyət göstərənyaradıcı şəxslərin yaradıcılıq prosesi, onların operativ hafizə xüsusiyyətləri və bu xüsusiyyətlərin bədii yaradıcılıqda təzahürü göstərilmişdir.

Müsahibə və sorğu zamanı alınmış cavablara əsasən müəyyən edilmişdir ki, həm bədii yaradıcılığın müxtəlif, həm də eyni janrlarında fəaliyyət göstərən yaradıcı şəxslərin hər biri öz fərdiliyi ilə seçilir. Eyni fəaliyyət sahəsində çalışan yaradıcı şəxslərin yaradıcılıqlarındakı fərdiliklər onların fərdi psixoloji və idrak proseslərinin xüsusiyyətlərinin də müxtəlifliyindən xəbər verir. Hər bir yaradıcı şəxsin hafizəsi, onun keçmişi, gələcəyi və indiki zamanı ilə, onun düşüncələri ilə bağlıdır. Eyni zamanda hər bir yaradıcı şəxsin yaradıcılığı onun potensial hafizəsindəki bilikləri ilə, bu biliklərin yaradıcılıq prosesi zamanı təxəyyülündəki obrazlarla uzlaşdırması, təfəkkürdə bütün bunları təhlil-tərkib etməsi və bu prosesdə başlıca amillərə diqqət yetirərək cəm etməsindən ibarətdir. Bu prosesdə operativ hafizənin müstəsna rolu danılmazdır. Məhz operativ hafizənin mərkəzi prosessor, fonoloji petlə və vizual-məkan hafizəsi kimi tərkib hissələri yaradıcılıq məhsulunun ərsəyə gəldiyi zaman müxtəlif analizatorlarla alınmlş informasiyanın emal edilməsində, onların əvvəlki biliklərlə assosiasiya edilərək hər bir yaradıcı şəxsin təxəyyülünün potensialına uyğun olaraq, tamamilə yeni obrazların

yaradılmasına xidmət edir.

Dissertasiyanın **“Bədii yaradıcılıq prosesində operativ hafizənin tənzimlənməsinin psixoloji xüsusiyyətləri”**adlanan üçüncü yarımfəsildə bədii yaradıcılıq ixtisasları üzrə təhsil alan tələbə gənclərdə operativ hafizənin xüsusiyyətlərini və inkişaf etdirilməsi imkanlarını müəyyənləşdirilmişdir.

Tədqiqat Bakı Slavyan Universitetinin filologiya fakültəsinin IV, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının III, IV kurslarında təhsil alan, hər birindən 45 nəfər olmaqla 135 nəfər tələbə üzərində aparıldı. Həmin tələbələr artıq bədii yaradıcılığın müxtəlif: poeziya, nəsr, rəssamlıq, musiqi sahələrində müəyyən uğurlar əldə etmiş tələbələr idilər.

Tədqiqatda əvvəlcə tələbələrin hafizə imkanlarını yaddasaxlamanın müddətinə və iradi tənzimlənmə xüsusiyyətlərinə görə müəyyənləşdirildi. Operativ (qısamüddətli) hafizədə informasiyaasan axtarılıb tapıldığından hafizəyə aid olan testlərin bir çox növlərində operativ hafizənin bu xüsusiyyətinə diqqət yetirilir. Apardığımız təcrübələr zamanı tələbələr test-sınaqlardan keçirildilər. Beləliklə, qısamüddətli, ixtiyari və qeyri-ixtiyari yaddasaxlamanın öyrənilməsi məqsədilə bir sıra metodikalardanistifadə olundu.Operativ hafizənin ölçülməsi metodikasından istifadə zamanıyüksək göstərici rəssamlarda olmuşdur. Onların 36 nəfəri“Ədədlərin yerləşməsi” metodikasında tapşırığı uğurla yerinə yetirmişlər. İkinci yerdə filoloqlar (33 nəfər), üçüncü yerdə müsiqiçilərdir (27 nəfər). Digər eksperimentlərdə obrazlı, sözlü məntiqi və emosional hafizə öyrənilmişdir.

Başqa metodikalarla araılan tədqiqat zamanı yüksək nəticə müsiqiçi tələblərə məxsusdur. Onların 33 nəfəri 7 sıranın hər biri üzrə orta hesabla 6 rəqəmi yazmışdır. İkinci mərhələdə isə onlar hər sıra üzrə 3-4 cüt rəqəmi yadında saxlayaraq qeyd etmişlər. İkinci yerdə rəssamlar durur. Tapşırıq 30 tələbə tərəfindən düzgün yerinə yetirilmişdir. Filoloqlardan 24 nəfəri bu təcrübədə uğurlu nəticə göstərmişdir. Belə görünür ki, bədii yaradıcılıq sahəsində fəaliyyət göstərənlərin operativ hafizəsinin həcmi, əslində o qədər də yüksək deyil.

Emosional operataiv hafizəni öyrənmək üçün tələbələrə “Ev. İnsan. Ağac” testindən istifadə olundu. Tələbələrə “Ev.İnsan.Aşac” testi üzrə şəkil çəkmək təklif olundu. Testin təhlili kəmiyyət üzrə deyil, keyfiyyət üzrə aparılmışdır. Biznəticələrin yüksək və ya aşağı olmasını çəkilmiş rəsmlərin hafizədə həkk olunmuş hiss və emosiyaları ifadə edə bilmək dərəcəsi ilə müəyyən etmişik.

Bu proyektiv testdə rəssamlar keşmiş obrazları daha yaxşı yada salaraq bir neçə dəqiqə ərzində uşaqlıq təəssüratlarını da çəkdikləri rəsmdə ifadə etmişlər. Onların seçdikləri rənglər keçirdikləri hiss və emosiyaları aydın

ifadə etməyə imkan vermişdir. İkinci nəticələr müsiqiçilərdə, üçüncü nəticələr isə filoloqlarda olmuşdur.

Yaradıcılıq prosesində təbii olaraq operativ hafizədə funksional gərginliklər yaranır. Bu zaman operativ hafizənin işi ya fəallaşır, ya da zəifləyir. Tədqiqatçılar bunu yaradıcılıq prosesinin bir sıra amillərlə əlaqəsi ilə əlaqələndirirlər: bu prosesin iradi tənzimlənməsi, yaradıcılıq anındakı emosional vəziyyət, yaradıcılıq şəraiti və s. Biz bu vəziyyəti kompleks metodikanın köməyi ilə araşdırdıq:"Ədədlərin yerləşməsi", "Operativ hafizə" və İ.P.Zinçenko metodikası.

Məqsəd– ikili stimullaşdırmanın köməyi ilə operativ yadda saxlama imkanlarının müəyyən edilməsi olmuşdur. Məlumdur ki, hafizədə gərginliklər baş verir. "Hesabla, yadda saxla" metodikası operativ hafizədə funksional gərginliklər yarandığı hallarda istifadə olunur.Belə qənaətə gəlmək olur ki, yaradıcılıq prosesində hafizə obrazlarının kodlaşdırma sistemi nə qədər müxtəlif olursa, operativ hafizənin işi də bir o qədər çətinləşir. Əksinə, yalnız birməzmunlu obrazlarla işləmək lazım gəldikdə operativ hafizənin həm həcmi, həm də intensivliyi artır.

"Zinçenko metodikası"ndan istifadə zamanı məlum olmuşdur ki, əşyalar və rəqəmlər fəaliyyət obyekti olduqda sınanılanlar onları daha yaxşı yadda saxlayırdılar. I mərhələdə onlar yüksək nəticələr göstərdilər. Rəssamların 39 nəfəri, müsiqiçi və filoloqların 36 nəfəri bu tapşırığı yaxşı yerinə yetirmişlər. Kartlarda hər bir obyektin yanında ikiədədli rəqəm təsvirləri əlavə edildikdə vəziyyət dəyişmişdir. Bu halda müsiqişilərin nəticələri artmışdır (33 nəfər). Əksinə, rəssamlar (30) və filoloqlar (27) daha az nəticə göstərmişlər.Deməli, bir daha aydın olur ki, yaddasaxlamaya əlavə qıcıqlayıcılar əlavə edildikdə və tapşırıq fon xarakteri daşıdıqda nəticələr aşağı düşür. Bu tədqiqatın nəticələri Münsterberq metodikasının nəticələri ilə bir-birini tamamlayır.

Operativ hafizənin müvəqqəti xarakteristikası öyrənilərkən əsas problem kimi informasiyanın hifz edilməsindən başlayaraq operativ yaddasaxlamanın məqsədinin həyata keçirilməsinə qədər informasiyanın saxlanmasının uzunluğu nəzərdə tutulur. Operativ yaddasaxlamanın optimal variantı isə yaddasaxlamanın perseptiv və fikri əməliyyatlarla uyğunlaşması şəraiti hesab olunur. Bu məsələlər hafizənin assosiativ imkanları və şəxsiyyətin motivasiyasının öyrənilməsi əsasında tədqiqatın III mərhələsində öyrənildi. Bu zaman"Assosiativ hafizənin müəyyənləşdirilməsi metodikası"ndan istifadə olundu.Verilmiş cavablara görə filoloqların nəticələri yüksək olmuşdur. Bu tələbələrin 30 nəfəri söz analogiyalarını düzgün müəyyənləşdirmişlər. Biz bunu tapşırığın sözlü məntiqi hafizə növünə uyğunluğu ilə əlaqələndirdik. İkinci nəticə rəssamlarda olmuşdur – 27 nəfər. Müsiqiçilərin bu sınaq üzrə nəticələri 21 nəfərdə yüksək, 15 nəfərdə orta, 9 nəfərdə aşağı olmuşdur.

Dünya və onun obrazını, necə təsəvvür edildiyini müəyyən etmək üçün“Dünyanın obrazı” metodikasından istifadə olundu.

“Dünyanın obrazı” metodikası üzrə nəticələrin müqayisəsi

Cədvəl 2.1.

| | Təsvir növü | | | | |
|---|---|---|---|---|---|
| Yaradıcı qruplar | KT | PT | ST | MT | AT |
| Rəssamlar -45 nəfər | 9 | 15 | 3 | 9 | 9 |
| Filoloqlar-45 nəfər | 12 | 30 | 3 | 0 | 0 |
| Bəstəkarlar-45 nəfər | 12 | 15 | 6 | 3 | 9 |
| Yekun -135 nəfər | 33 | 60 | 12 | 12 | 18 |

Buradan belə bir nəticə əldə olunur ki, yaradıcılıq sahələrinə görə operativ hafizənin canlandırdığı obrazlar, hadisələr fərqlidir. Burada yaradıcı insanların təsəvvürləri, təxəyyül obrazları, dərketmə və qavrama üsulları mühüm əhəmiyyət kəsb edir. Filoloqlar əsasən real obrazlardan, rəssamlar və bəstəkarlar həm real, həm də koqnitiv, metaforik, abstrakt obrazlardan istifadə edə bilirlər.




Şəkil 2.1. “Dünyanın obrazı” metodikası üzrə nəticələrin təsviri
1 koqnitiv-KT, 2 peyzajlarla - PT, 3 situativ - ST, 4 metaforik - MT, 5 abstrakt obraz, simvol və işarələrlə – AT təsvirləri bildirir. Tədqiq olunanların çəkdikləri rəsmin təhlili onların şəxsiyyət tipini aşağıdakı kimi qruplaşdırmağa imkan verir

Həndəsi fiqurlar əsasında çəkilmiş konstruktiv insan rəsmi üzrə sınanılanlarda üstünlük təşkil edən şəxsiyyət tiplər

Cədvəl 2.2.

| Tiplər | I tip - rəhbər | II tip- məsu-liyyətli icraçı | III tip -tədqi-qatçı | IV tip - intuitiv | V tip-kəşf edən, kons-truktor, rəssam | VI tip - emotiv | VII tip - emotiv tipin əksi |
|---|---|---|---|---|---|---|---|
| Rəssamlar -45 nəfər | 6 | 3 | 3 | 9 | 21 | 3 | 0 |
| Filoloqlar-45 nəfər | 15 | 9 | 6 | 6 | 9 | 0 | 0 |
| Bəstəkarlar-45 nəfər | 6 | 0 | 12 | 18 | 6 | 0 | 3 |
| Yekun - 135 nəfər | 27 | 12 | 21 | 33 | 36 | 3 | 3 |

Göründüyü kimi, sınanılan tələbələrin əksəriyyətinin şəxsiyyət tipi ixtisas sahəsinə uyğun gəlir. Onlar bədii yaradıcılıq üçün müvafiq şəxsiyyət tipinə malikdirlər.




Şəkil 2.2. Bədii yaradıcılıqla məşğul olan tələbələrdə üstünlük təşkil edən şəxsiyyət tipləri.

Digər əhəmiyyətli cəhət budur ki, sınanılan tələbələrin əksəriyyətinin şəxsiyyət tipi ixtisas sahəsinə uyğun gəlir. Onlar bədii yaradıcılıq üçün müvafiq şəxsiyyət tipinə malikdirlər. Belə ki, kəşf edən, konstruktor, rəssam və intuitiv tip onlarda üstünlük təşkil edir. Sınanılanlar arasında

tədqiqatçılar və icraçılar da var. Yaradıcılıq sahəsində çətinliklərlə qarşılaşacağı ehtimal olunanların sayı çox aşağıdır.

Tədqiq olunanlarda yaradıcılıq prosesinin iradi tənzimlənməsini müəyyənləşdirmək, müxtəlif yaradıcılıq sahəsi üzrə və fərdi fərqlərə görə nəticələrin müqayisəsini aparmaq məqsədilə "Subyektiv nəzarət səviyyəsinin tədqiqi" metodikası da tətbiq olunmuşdur.

Tələbələrin subyektiv nəzarət səviyyəsinin müəyyənləşdirilməsi üzrə nəticələr

Cədvəl 2.3.

| İstiqamətlər/sınanılanlar-nəfərlə | Filoloqlar | | | Rəssamlar | | | Bəstəkarlar | | | Yekun | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 |
| 1. Nailiyyət sahəsi (In). | 36 | 6 | 3 | 36 | 9 | 0 | 36 | 6 | 3 | 108 | 21 | 6 |
| 2. Ümumi internallıq (Iü) | 33 | 6 | 6 | 30 | 12 | 3 | 36 | 0 | 9 | 99 | 18 | 18 |
| 3. Ailə münasibətləri(Ia). | 30 | 6 | 9 | 27 | 6 | 12 | 24 | 3 | 18 | 81 | 15 | 36 |
| 4.Istehsal münasibətləri(Ii). | 27 | 12 | 6 | 21 | 15 | 9 | 21 | 12 | 12 | 69 | 39 | 27 |
| 5.Sağlamlıq,xəstəliyə münasibət (Ix) | 24 | 12 | 9 | 18 | 9 | 18 | 24 | 12 | 9 | 66 | 33 | 36 |
| 6. Uğursuzluq sahəsi(Iu). | 21 | 18 | 6 | 24 | 6 | 15 | 21 | 9 | 15 | 33 | 33 | 36 |

Cədvəl 3.2-dən göründüyü kimi hər üç qrupda nailiyyət sahəsində internallıq şkalası üzrə göstəricilər yüksəkdir. Filoloqların və bəstəkarların 39, rəssamların 36 nəfəri düşünür ki, onların həyatında baş verən bir sıra hadisələr ilk növbədə öz fəaliyyətinin nəticəsidir və bunu özləri idarə etmək qabiliyyətinə malikdirlər. Belə halda bu fəaliyyətə görə öz məsuliyyətini dərk edirlər. Qalan 21 nəfərdə bu şkala üzrə göstərici ailə münasibətləri və sağlamlıq sahəsində internallıq şkalalarından sonrakı ikinci yerdə durur.

"Piktoqramın köməyi ilə səmərəli yaddasaxlama" metodikasındanistifadə zamanı müəyyən olundu ki, hazırlanmış sözlər tələbələrə verilərkən, onlar əsasən fəaliyyət göstərdikləri yaradıcılıq sahələrinə uyğun təsvirlərdən istifadə etmişlər. Rəssam tələbələrdə təsvirlər, onların peşə vərdişlərindən irəli gələrək daha müxtəlif məzmunlu və rəngarəng idi. Filoloqlar da obrazların canlandırılmasında rəngarəngliyə və uyğun bənzətmələrə üstünlük vermişlər. Musiqiçilər daha çox işarələr və bəzi musiqi alətlərinin təsvirlərindən istifadə etmişlər.Yadasalmalardakı göstəricilər demək olar ki, bir birinə yaxın olmuşdur. Ən yüksək göstərici rəssamlarda (84%),filoloqlarda(77%) və müsiqiçılırdə (73%) orta göstərici olmuşdur.

Piktoqramın köməyi ilə səmərəli yaddasaxlamanın nəticələri

Cədvəl 2.4

| Sınanılanlar | Rəssamlar(45) | Filoloqlar(45) | Musiqiçilər (45) |
|---|---|---|---|
| Tələbələrin sayı (135nəfər) | 38 | 35 | 33 |
| Faiz göstəriciləri | 84% | 77% | 73% |

Cədvəl 2.4-dən də göründüyü kimi sınanılan 45 nəfər rəssam tələbədən 38-i, fililoqlardan 35-i, musiqiçilərdən isə 33-ü verilmiş anlayışları çəkdikləri rəsmlərə əsasən düzgün yada salmışlar. Rəssamların yüksək nəticə göstərməsinə səbəb, onların fəaliyyət sahələrinin xüsusiyyətlərinə xas düşüncə tərzinə malik olmaları, düşüncələrini rəsmlərdə daha gözəl ifadə etmələridir.Anlayişların təsviri baxımından obrazlardakı dəqiqlik, rəng çalarlığının müxtəlifliyi də rəssamlarda daha maraqlı idi. Filoloqların da yanaşmaları onların verdikləri şərhlərə əsasən öz daxili dünyalarını əks etdirən şəkildə idi. Musiqiçilərdə diqqəti cəlb edən əsas məsələ anlayışların daha çox işarələrlə verilməsi və rənglərdən digərlərinə nisbətən az istifadə etmələri idi. Yadasalmanin keyfiyyəti üzrə təhlillər apararaq rəssamlar - yüksək, filoloqlar - orta və musiqiçilər - aşağı səviyyədə qiymətləndirilmişdir.

Apardığımız tədqiqat belə deməyə əsas verir ki, operativ hafizənin bədii yaradıcılıq prosesindəki xüsusiyyətləri müxtəlifdir. Bu xüsusiyətlər operativ hafizənin müddətinə, həcminə, növlərinə görə dəyişir. Belə ki, bədii yaradıcılıqla məşğul olan insanların operativ adlandırdığımız hafizəsi özündə çox həcmdə informasiyanı saxlamaq gücündə deyil. Əslində, bu nəticə hafizə qanunlarına uyğundur.

Operativ hafizənin sürəti, intensivliyi, məzmunu, məhsuldarlığı bədii materialların qavranılmasını, bədii yaradıcılıq prosesinin təşkilini, bədii yaradıcılıqla məşğul olan insanın özü və başqaları haqqındakı qiymətləndirmələrini, onun şəxsiyyətlərarası qarşılıqlı münasibətlərini şərtləndirən əsas psixoloji amillərdən biridir.

Rəssamların operativ hafizəsinin həcmi onların təxəyyül imkanları ilə daha çoxəlaqəlidir. Rəssamlar rəqəmləri rənglərə və özünəməxsus obrazlara görə, fərqli qaydada yadda saxlayırlar. Onlar rəqəmləri rənglə, oxşar obrazlarla, həndəsi fiqurlarla, təbiət elementləri ilə assosiasiya edirlər: ləçəklərinə görə fərqlənən çiçək növləri, başqa tələbə hesablama sayğacına qonmuş quş təsvirləri və s.

Aldığımız nəticələrə əsasən qeyd etmək olar ki, tələbələrin hafizə tipini, onun xüsusiyyətlərini diaqnozlaşdırmaqla təhsil prosesini səmərəli təşkil etmək mümkündür. Bu tələbələrin psixoloji yükünü azaltmış olur. Hafizə tipini bilərək həm də qiymətləndirmənin, optimal sistemini yaratmaq müm-

kündür.

Yaradıcılıq prosesində hafizənin operativ növünün inkişafı heç də davamlı olaraq getmir. Burada yaradıcı insanın əhval-ruhiyyəsi, iş keyfiyyəti, koqnitiv üslubu və d. amillərin xüsusi rolu var. Operativ hafizə məhsuldar yaradıcı fəaliyyətdə daha yaxşı formalaşır. Onun formalaşmasında həlledici rolu yaradıcı şəxsiyyətin iradi imkanları, özünüreallaşdırma qabiliyyəti oynayır.




Şəkil 2.4. Piktoqramın göstəriciləri üzrə səviyyələr

Müəyyən olundu ki,operativ yaddasaxlamaya tələbin yetərincə böyük olduğu bədii yaradıcılıq sahəsində onun optimal işi üçün əlverişli şərtlər vardır. Onun operativ işinə ləngidici təsirlərin azalmasının müxtəlif yolları mövcuddur: məlumatların aydın, ardıcıl təqdim edilməsi, məlumatların sınanılanın üstün operativ hafizə tipinə uyğun yolla: obraz, səs, hərəkət, toxunma və s. vasitələrlə təqdim edilməsi, operativ hafizənin səmərəli işi üçün əlverişli şəraitolması, ikincidərəcəliməlumatların sayının imkan daxilində məhdudlaşdırılması, informasiyanın həcmini əhəmiyyətli dərəcədə azaltmaq qeyri-mümkün olduqda obyektlərin sayının azaldılması, təqdim olunansimvolların qruplaşdırılması, daha əhəmiyyətli olanların ayrılması və s. Aparılmış tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə imkan verir.

1.Yaradıcı axtarış zamanı bədii yaradıcılığa bilavasitə lazım olanmövzuya uyğun obrazlar potensial hafizədən (təhtəlşüurdan) operativ hafizənin köməyi ilə axtarılır. Yaxud mövcud olan hafizə materiallarına yeni bədii obrazları kombinə edir. Bu prosesi operativ hafizə yerinə yetirir.

Həmin prosesdə operativhafizənin bütün əsas göstəriciləri: həcm, dəqiqlik, yadda saxlamanın surəti və hifz etmənin uzunluğunu müəyyən edən proseslər onun başlıca xüsusiyyətləridir.

2. Operativ hafizənin digər növlərindən üstünlüyü informasiyanın zəruriliyinə seçici münasibətdə, onun yadda saxlamaq, yaxud yada salmağın zəruriliyini müəyyənləşdirməsindədir. Operativ hafizə yaradıcılıq üçün idrakın elə bir prosesidir ki, o, hafizəyə daxil olan informasiyanın həm yaddasaxlanma, həm də yadasalma mərhələsində fəal iştirak edərək həmin informasiyanın təhlilini verir. Bunsuz hafizə materiallarından operativ istifadə imkanları məhdudlaşa, uzunmüddətli yadda saxlanılan materiallar əlaqəsiz formada fəallaşaraq yaradıcılıq prosesini poza bilər.

3. Yaradıcılıq prosesində keçmişin indiki zamanda yenidən yada düşdüyü konkret akt olan tanıma məhz operativ hafizənin hesabına mümkün olur. Operativ hafizə əsərin yaradılması prosesində zəruri olan, lazımi tanınmış, yada salınmış xatirələr hesabına daha da zənginləşir. Bununla yanaşı, bu, vaxtı ilə yadda saxlanılmış və hazırda yada salınmış faktlaroperativ hafizə hesabına sxematik canlandırılır.

4. Operativ hafizənin səciyyəvi xüsusiyyətindən biri də informasiyanın onun buferlərində saxlanılmasının tapşırıqdan asılı olmasıdır. Belə ki, məlumatlar, operativ hafizədə yaradıcılıq prosesinin həmin anı üçün lazım olan həcmdə və lazım olan müddətdə saxlanılır. Həmin material bir neçə dəqiqə, bəzən isə gün və həftələr ərzində operativ hafizədə qorunur. Problem həll olunandan sonra, bu material artıq yaradıcılıq prosesində lazım olmadığı andan etibarən sıxışdırılaraq unudulur. Bu, imtahan müddətində tələbələrin hər hansı fənn üzrə lazım olan bilikləri operativ hafizədə qoruyub saxlaması, ondan fəal şəkildə istifadə etmələri kimidir. Imtahan başa çatdıqdan sonra onlar tez bir zamanda operativ hafizədən həmin materialları uzunmüddətli hafizəyə ötürür, bəzilərini isə, ümumiyyətlə, unutmağa çalışırlar.

5. Operativ hafizənin işində təxəyyülün əvəzsiz rolu var. Mnemotexnikada təxəyyülün imkan verdiyi yolları təhlil etsək görərik ki, bu sahədə uğurlu nəticələr əldə etmək üçün ən zəif ixtiyari xatırlamanı birinci plana çəkmək, onu xatirələr kimi fəal olaraq aktuallaşdırmaq olar. Buna nail olmaq üçün, hər şeydən əvvəlhərəki hafizəni məhdudlaşdırmaq, fikirləri mərkəzləşdirmək, təxəyyülü canlandırmaq, onun surətlərini operativ hafizədə canlandırdığımız obrazlarla assosiasiya etmək lazımdır. Bu halda operativ hafizə, yuxarıda qeyd etdiyimiz kimi, uzunmüddətli hafizənin siqnalları əsasında ən doğru olanı qeyri-müəyyəndən ayırır.

6. Təxəyyül obrazları zəngin olan yaradıcı insanlarda, uzunmüddətli

hafizənin yadasalma müddəti nə qədər sürətlidirsə, operativ hafizənin həcmi də bir o qədər geniş olur. Burada operativ hafizənin həcminin genişliyi dedikdə məhz iradi şəkildə, qısa müddət ərzində yadda saxlanılan və yada salınan maretiallar nəzərdə tutulur.

7. Operativ hafizənin obrazlı, sözlü-məntiqi və emosional növlərində yaradıcılıq sahələri üzrə alınan bu nəticələrdə ziddiyyətlər var. Bəzi nəticələrdə müsiqiçi və rəssamlar, bəzilərində isə filoloqlar yüksək nəticə göstərirdilər.

8. Operativ hafizə və yaradıcılıq prosesi arasında sıx qarşılıqlı əlaqədə olan xatirənin real təbiəti psixologiyada hələ də kifayət qədər aydınlaşdırılmayıb. Bu ondan irəli gəlir ki, xatirə obrazları heç də həmişə tam aydınlığı ilə, təmiz formada canlanmır. Xatirələrdə obraz, məkan, hərəkət arasındakı əlaqələri bölmək, ayırmaq çətin olur. Çox hallarda uzaq keçmişə aid olduğundan özünün başlanğıc formasını, "təmizliyini" itirmiş olur. Bu baxımdan xatirələrdə itirilən bir sıra əməliyyatları axtarmaq, onları bir-biri ilə birləşdirmək əvəzinə təxəyyül obrazlarının birləşməsi nəticəsi kimi əmələ gələn qarışıq düşüncələrə, təəssüratlara üstünlük verilir.

9. Bədii yaradıcılıq prosesində operativ hafizənin xüsusiyyətlərini onun yeni obraz və hadisələr yaratmaq üçün bərpaedici təxəyyüllə qarşılıqlı əlaqəyə girdiyi məqamda axtarmaq məqsədəuyğundur. Müəyyən edilmişdir ki, xüsusilə, bərpaedici təxəyyül bu prosesdə daha fəal olur. Nəticədə belə qarışıq təsəvvürlər, bir tərəfdən obrazları, məkan əlaqələrini, hərəkəti, digər tərəfdən hadisənin tam mahiyyətini əks etdirmir. Fərziyyəyə uyğun olaraq mövcud materialdan istifadə edilir.

10. Üzünmüddətli hafizədə saxlanılan materialın yada salınmasına müəyyən vaxt tələb olunur. Həmin prosesdə temperament tiplərinin xüsusi rolu var. Mətnlərin yada salınması və ifadə olunması üçün uyğun, ən sürətli yadasalma prosesində belə münasib sözlərin tələffüzü üçün zəruri olan bütün hərəkətləri heç olmasa fikri olaraq yerinə yetirməyə lazım olan qədər vaxt tələb olunur. Yadda saxlanılan material özündə insan vərdişlərinin bütün əlamətlərini daşıyır. Hər hansı bir şeri əzbər öyrənmək lazım gəldikdə o uca səslə, hissə-hissə oxunaraq, sonra bir neçə dəfə təkrarlanaraq hafizədə həkk edilir. Öyrənilənlərin yadda saxlanmasını yoxlamaq üçün bir-birinin ardınca keçən frazalar təsəvvürdə canlandırılır.

11. Şeir, tərif, yaxud aforizm vərdişlərin qazanılmasında olduğu kimi, eyni qaydada təkrarlamanın köməyi ilə mənimsənilir. Hər hansı bir materialı əzbərləmə prosesi vərdişdə olduğu kimi, əvvəlcə tərkib hissələrinə ayrılma, sonra mətnin obrazlarda bərpa olunaraq, birləşdirilərək yadda saxlanmasını və yada salınmasını tələb edir. Bu ona bənzəyir ki, bədəndə artıq

vərdiş edilmiş hərəkət ilk, başlanğıc refleksin təsiri altındaca bütünlükdə hərəkətdə baş verən mexaniki proseslərə, bir birinin ardınca, bir qaydada icra olunan, eyni zaman, məkan və hərəkət qanunları ilə yerinə yetirilən avtomatik hərəkətlərin qapalı sisteminə qoşulur.

12. Hansısa vərdişlərin elementlərini özündə daşımayan materialın və ya hərəkət mexanizminin yada salınması müəyyən vaxt aparır. Görünür ki, onun obrazının hafizədə dərhal həkk olunmasında çətinliklər var, yaxud bu material həyatın tez-tez baş verən hadisələrindən, obraz və xatirələrdən fərqlidir. Ya da onuntəkrarlanması lazım gələn situasiyalar təsadüfi hallarda yaranır. Əksinə, həmin material nə qədər tez-tez təkrarlanırsa, onunla bağlı olan obraz, hadisə və xatirələri canlandırmaq lazım gəldikdə buna daha asanlıqla nail olmaq mümkündür.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **əsərlərində** öz əksini tapmışdır.

1.Psixologiyada hafizə və operativ hafizə problemləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı, 2009 ,№5,s.237-241.

2.Uzun müddətli, qısa müddətli və operativ hafizənin müqayisəli təhlili //Azərbaycan Dillər Universitetnin Elmi əsərləri, Bakı, 2010,№2,s.408-412.

3.Yaradıcılıq və hafizə // Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi əsərləri, Bakı, 2011, №2, s.64-67.

4.Operativ hafizənin psixoloji məsələləri / "Tədris prosesinin təkmilləş-dirilməsinin pedaqoji-psixoloji problemləri" mövzusunda beynəlxalq konfransın materialları. Naxçıvan: 2011, s.208.

5.Bədii yaradıcılıq prosesinin psixoloji məzmunu // Psixologiya jurna-lı,Bakı, 2011,№2, s.67-74.

6.Məktəb şəraitində hafizə tipinin diaqnostikası və qiymətləndirmə / "Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri" mövzusunda respublika elmi-praktik konfransının materialları. Bakı:2012,s.183-186.

7.Bədii yaradıcılıq prosesinin psixoloji xarakteristikası / Doktorant və gənc tədqiqatçıların XVII Respublika Elmi konfransının materialları.Bakı: 2013,s.197-199.

8.Bədii yaradıcılıq fəaliyyətində operativ hafizənin rolu //Elmi əsərlər, Bakı, 2013, №2(21), s.88-92.

9.Psixologiyada hafizənin struktur təhlili problemi // Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi xəbərləri, Bakı,2014,№,s.205-211.

10.Оперативная память как мнемический процесс, регулирующий творческие акты// Вектор науки Тольяттинского Государственного университета. İl Серия:Педагогика, психология, №1(16),136-137.

11. Qısamüddətli hafizədə informasiyanın kodlaşdırılması və təhlili //

Bakı Slavyan Universitetinin Elmi Əsərləri. İctimai-siyasi elmlər seriyası, Bakı,2014, № 3, s.123-127.

12. К вопросу об особенностях оперативной памяти //XIX век: итоги прошлого и проблемы настоящего. Периодическое научное издание. Серия: Социально-гуманитарные науки, Пенза,2015,Выпуск 06, №(28), с.129-132.

**Севда Ибрагим гызы Мансурова**

## Особенности оперативной памяти в художественном творчестве

### Резюме

Диссертационная работа посвящена одной из современных проблем психологии – особенности оперативной памяти в художественном творчестве. Во время творческого акта оперативная память вместе с другими познавательными процессами служит художественному процессу.

Диссертационная работа состоит из введения, двух глав, заключения, приложения и списка использованной литературы.

I Глава диссертации называется «Теоретико-исторические задачи исследования памяти» и состоит из четырех параграфов. Здесь отмечается что, научно-психологический анализ памяти впервые проводился Г.Эббингаузом. Он, впервые поставил вопрос экспериментального исследования памяти, разработал методы измерения мнемических процессов, в ходе экспериментальных исследований изучал закономерность процессов памяти. В данной главе одновременно анализируется исследования в этой области зарубежных и азербайджанских ученых и изучаются теории, определяющие функциональные возможности памяти.

II Глава диссертации называется«Психологические особенности организация операции оперативной памяти в процессе художественного творчества». В этой главе в соответствии с психологическим содержанием процесса художественного творчества, раскрываются и дается экспериментальный анализ взаимосвязь творчества и оперативной памяти в разных жанрах художественного действия, психологические особенности волевого уровновешования оперативной памяти в процессе художественного творчества.

В заключительной части диссертации обобщаются выводы и результаты исследования; отмечается, что исследовательская работа обладает серьезной научно-практической значимостью.

**Sevda Ibrahim qizi Mansurova**

## The speciality of operating memory in artistic creativity

## Summary

Dissertation paper is devoted to one of contemporary problems of psychology- the role of operating memory in artistic creativity. During artistic act operating memory together with other processes of recognition serves to artistic process.

Dissertation paper consists of an introduction, two chapters, conclusion, addition and list of literature.

The first chapter being called "theoretico-historical tasks of memory exploration"consists of four subchapters. Its also noticed that first scientifico-psychological analysis of memory problem was done by G.Ebbenhouser.

He was the first to set the question of experimental investigation of memory, adopted the methods formeasuring mimic processes, studied main features of memory problems. In this chapter not only investigations of foreign an Azerbaijanian researchersheld in this field are analyzed, but also the theories defining functional correlations of memory in psychology are described.

The second chapter is called "Psychological peculiarities of operating memory in the process of artistic creativity". In this chapter processes of correlations of creativity in different genres and operating memory, psychological peculiarities of volunteer regulations in operating memory were clarified and and experimental analysis were held.

In conclusion summarizes the basic results and drawn conclusions of research and its also noted that research work is of great serious scientifico-practical importance.